# Müasir Azərbaycan dövlətinin qurucusu

**Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində xalqına sonsuz sədaqət və məhəbbət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamışdır. Özünün zəngin və mənalı həyatı boyu daim öz xalqını və vətəni Azərbaycanı düşünmüş, onu üzləşdiyi çətinliklərdən qoruyub inkişaf etdirmək üçün çalışmış, fədakarlıq göstərmişdir. Müasir Azərbaycan dövlətçiliyinin təməlini ulu öndər hələ o vaxtlar respublikamıza rəhbərlik etdiyi sovetlər dönəmi zamanı yaratmışdır. O, Azərbaycanı geridə qalmış respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevirdi. Bu gün həmin dövrdə güclü iqtisadiyyatın təməlinin qoyulmasının nəticəsidir ki, müasir müstəqil Azərbaycan qısa bir zamanda yüksək iqtisadi inkişafa nail olmuşdur.**



Böyük çətinliklər bahasına əldə etdiyimiz kövrək müstəqilliyimizin itirilməsi ilə qarşı-qarşıya qalanda 1993-cü ilin iyununda xalqımız öz fədakar oğlu Heydər Əliyevə üz tutdu. Onu təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Belə bir ağır, çıxılmaz vəziyyətdə ölkəmizi düşdüyü böyük bəladan yalnız Heydər Əliyev dühası xilas edə bilərdi. Ona görə də xalqının səsinə həmişə səs verən ulu öndər Naxçıvandan Bakıya gəldi. Respublikada tüğyan edən özbaşınalıq, hərc-mərclik, vətəndaş müharibəsinin və başqa xoşagəlməz amillərin qarşısının alınması üçün öz həyatını və canını böyük təhlükə altına atdı. Bütün çətinlikləri göz altına alan Heydər Əliyev bu hallara qarşı kəskin və qəti mübarizəyə başladı. Qısa bir zamanda ölkədə cərəyan edən xaosun, anarxiyanın qarşısı alındı, ölkədə fəaliyyət göstərən qanunsuz silahlı dəstələr tərk-silah edildi. Azərbaycan parçalanıb məhv olmaq təhlükəsindən xilas olundu. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" - deyib meydana atılan böyük ürəkli, cəsarətli Vətən oğlunun öz milləti, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təcəssümü kimi daim yaşayacaq, Azərbaycanın həm indiki, həm də gələcək nəsillərinə əbədi örnək olacaqdır. Heydər Əliyev öz şərəfli və möhtəşəm fəaliyyəti ilə müasir, müstəqil Azərbaycan dövlətini yaratdı. Bu gün fəxrlə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti dahi öndərin şah əsəridir. Azərbaycanı həmişə müstəqil, inkişaf etmiş dövlətlər sırasında görmək istəyən ümummilli liderimiz bu barədə danışarkən qeyd etmişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Heydər Əliyevin siyasi uzaqgörənliyinin və siyasi iradəsinin məntiqi nəticəsi olaraq, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkə iqtisadiyyatının bütün sahələrinin sürətli inkişafına güclü təkan verdi. Onun uzaqgörənliklə həyata keçirdiyi uğurlu neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını mənimsəyən, yeni iqtisadi modeli formalaşdıran, Qafqaz nəqliyyat dəhlizinin inkişafında və regionda çox mühüm rol oynayan bir dövlətə, dünyanın böyük neft-qaz mərkəzlərindən birinə çevrilmişdir.

Dahi öndər Heydər Əliyevin müstəsna xidmətlərindən biri də demokratik və hüquqi dövlət quruculuğu yolundakı xidmətləridir. O, demokratik və hüquqi islahatları ardıcıl olaraq həyata keçirərək hər şeydən öncə, insan hüquq və azadlıqlarının təminatı məsələsinə xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi altında hazırlanan və ümumxalq referendumu ilə qəbul olunan Azərbaycanın ilk Milli Konstitusiyasının 1995-ci il 12 noyabrında qəbul olunması ölkəmizin inkişaf istiqamətlərini müəyyən etmiş, siyasi və iqtisadi islahatların möhkəm bazisinə çevrilmişdir. Yeni Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz azadlığı bərqərar olmuş, məhkəmə hüquq islahatları uğurla davam etdirilmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə ölüm cəzasının ləğvi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması və digər işlər ölkəmizin demokratik inkişaf yolunda əldə edilmiş ən böyük nailiyyətlərindəndir. Azərbaycanın ilk Milli Konstitusiyasında mənəvi sərvətlərimizə, dinimizə, tarixi irsimizə hörmət dövlət səviyyəsinə qaldırıldı. Əsasının milli dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsası qoyuldu. Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş milyonlarla soydaşlarımızın milli məfkurə əsasında birləşməsini və müxtəlif ölkələrdə Azərbaycan diasporunun yaradılmasını təmin etdi.

Azərbaycanın müstəqilliyinin ilk illərində böyük çətinliklərlə üzləşən nəqliyyat sektoru dərin böhran və tənəzzül içərisində idi. 1993-cü ilə qədər ölkəmizə rəhbərlik edən o zamankı səriştəsiz iqtidar bu mühüm sahənin inkişafı üçün heç bir iş görməmişdi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu sahədə baş alıb gedən tənəzzülün qarşısı alındı. İctimai-siyasi sabitliyin bərqərar olması, köklü islahatların həyata keçirilməsi nəticəsində ölkədə başlamış geniş tikinti-quruculuq işləri nəqliyyat sektoruna da təsirsiz qalmadı. Ümummilli liderin təşəbbüsü ilə Azərbaycanın Avropa - Qafqaz - Asiya (TRASEKA) nəqliyyat dəhlizinə qoşulması, Böyük İpək Yolunun bərpası beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılandı.

Böyük İpək Yolunun bərpası üzrə həyata keçirilən məqsədyönlü işlər ölkəmizin iqtisadiyyatının tərəqqisində, nəqliyyat infrastrukturunun müasirləşməsində və formalaşmasında mühüm rol oynadı. Qısa zaman kəsiyində nəqliyyat sektoru öncül yerlərdən birini tutdu. Heydər Əliyev bilirdi ki, hər bir ölkənin iqtisadi inkişafı üçün nəqliyyat sektorunun müasir tələblər səviyyəsində olması əsas amildir.

Bu gün əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat siyasəti hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına uyğun olaraq uğurla davam etdirilir. O, bu barədə danışarkən vurğulamışdır: "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunun daha sürətlə inkişaf etdirəcəyik... Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır. Hesab edirəm ki, gələcəkdə tranzit ölkə kimi bölgədəki və dünyadakı mövqelərimiz daha da möhkəmlənəcəkdir. Beləliklə, indi Azərbaycanda bütün sferaların, o cümlədən də nəqliyyatın inkişafı üçün münbit şərait var". Bu səbəbdəndir ki, Prezident İlham Əliyev nəqliyyat sistemini, ölkə dəmir yolu nəqliyyatını daha da təkmilləşdirmək məqsədilə 2010-cu ildə "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyatı sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Nəqliyyat sisteminin əsas qollarından biri olan dəmir yolunun perspektiv inkişafı cənab İlham Əliyevin diqqət mərkəzindədir. Son illər xüsusilə qeyd etmək lazımdır ki, dəmir yolunda görülən işlərin, əldə edilən möhtəşəm uğurların hamısı məhz dövlət başçısının təşəbbüsü və ciddi səyi, nəzarəti ilə reallaşdırılır. Bu gün Bakı-Tbilisi-Qars və Şimal-Cənub beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallaşdırılması bu sahədə qazanılan ən böyük uğurlardandır.

Hazırda Azərbaycan iqtisadiyyatı dünyada gedən iqtisadi tənəzzülə baxmayaraq, uğurla inkişaf edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, bu ildə də iqtisadiyyatımız dinamik inkişaf etmişdir ki, bunun da təməlində apardığımız məqsədyönlü siyasət, milli maraqlar, uğurlu islahatlar dayanır. İqtisadi inkişafın nəticəsidir ki, bu gün bütün sahələrdə olduğu kimi, ölkənin dəmir yolu sahəsi də özünün sürətli tərəqqi və yenidənqurma dövrünə qədəm qoymuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi və gərgin fəaliyyəti ilə qarşıya qoyulmuş bütün işlər, qlobal layihələr vaxtında və yüksək keyfiyyətlə icra olunur. Qısa bir vaxt ərzində Bakı-Sumqayıt dəmir yolu xətti təmir olundu, müasir standartlara cavab verən elektrik qatarı istismara buraxıldı, ölkə başçısı yolasalma mərasimində şəxsən iştirak etdi. Bu gün Bakı sərnişin stansiyasında, vağzalın inzibati binasında yenidənqurma, əsaslı təmir işləri sürətlə, müasir dövrün standartlarına uyğun aparılır. Görülən işlərdə əsas məqsəd dəmir yolu nəqliyyatından istifadə edən vətəndaşların və şəhərimizin qonaqlarının rahatlığının təmin olunmasıdır.

Bu gün əsaslı təmir işləri Bakı-Sumqayıt xətti üzərində yerləşən Biləcəri stansiyasında da yüksək keyfiyyətlə aparılır. Bu yaxınlarda stansiyada müasir tələblərə uyğun 2 ədəd uzunluqları 140 və 250 metr olan sərnişin platformaları tikilmişdir. Artıq Bakı-Sumqayıt marşrutu üzrə hərəkət edən qatar cari ilin 19 noyabr tarixindən etibarən Biləcəri və Xırdalan stansiyalarında da dayanır. Bu işlərin həyata keçirilməsində əsas məqsəd əhalinin rahatlığının təmin olunmasına hesablanmışdır.

Biləcəri stansiyasının kollektivi ölkədə yaradılan inkişaf mühitindən yararlanaraq dəmir yolunun inkişafına öz töhfələrini verirlər. Belə ki, ötən 10 ay ərzində yüksək iqtisadi göstəricilər bunu deməyə əsas verir. Bu dövr ərzində stansiyaya çeşidlənməyə qəbul olunan qatarların sayı 6008 qatar, stansiyada tərtib olunaraq göndərilən qatarların sayı 5120 qatar, o cümlədən birbaşa hərəkət edən qatar sayı 380 olmuşdur. 10 ay ərzində təpədən çeşidlənən qatarların sayı 197281 vaqon təşkil etmişdir, stansiyada vaqon dövriyyəsi 416600 vaqon olmuşdur. Bu dövr ərzində vaqonların yüklənməsi plan üzrə 260 vaqona qarşı 327 vaqon olmuş, bu da plana 126 faiz, yükboşaltma üzrə plan 2348 vaqona qarşı 2813 vaqon, yəni 120 faiz yerinə yetirilmişdir. Stansiya üzrə işçi vaqon parkı plan üzrə 349 vaqona qarşı, 273 vaqon olmuş, yəni verilən tapşırığa 128 faiz əməl olunmuşdur. Stansiyada qış mövsümünə hazırlıq işləri aparılmışdır. Bütün xidməti iş yerləri qış mövsümünə hazır vəziyyətə gətirilmiş və işçilərin xidməti otaqları istilik sistemi ilə təchiz edilmişdir. Həmçinin açıq hava şəraitində işləyən işçilərə hava şəraitinə uyğun olaraq geyim formaları verilmişdir. Bundan başqa, stansiyanın qış mövsümündə fasiləsiz işini təmin etmək məqsədilə 2016-2017-ci illər üzrə qarla mübarizə üçün operativ plan tərtib edilmiş və bu plana əsasən Biləcəri dəmiryol qovşağının müəssisələri arasında müvafiq bölgü aparılaraq, qarlı hava şəraitində qatarların fasiləsiz və təhlükəsiz hərəkətinin tənzimlənməsi qaydaları göstərilmişdir.

Ötən dövr ərzində, qeyd etdiyimiz kimi, Biləcəri stansiyasında tikinti-quruculuq, yenidənqurma işləri uğurla, yüksək zövq və keyfiyyətlə həyata keçirilmişdir. Stansiyanın baş yolunda əsaslı təmir işləri tamamlanmışdır. Sərnişin platformalarında turniketlər və oturacaqlar, müasir işıqlandırma sistemləri quraşdırılmışdır. Biləcəri stansiyasının inzibati binasının birinci mərtəbəsində ulu öndərimiz Heydər Əliyevin anım günü ərəfəsində fotostend, guşə yaradılmışdır. Yüksək zövqlə yaradılmış bu guşədə ümummilli liderimizin müəyyən dövrlərdə Biləcəri stansiyasında olması və vətəndaşlarla görüşünü, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ayrı-ayrı dəmir yolu müəssisələrinin açılışında iştirak etməsini və ümumiyyətlə ölkə dəmir yoluna göstərdiyi diqqət və qayğısını əks etdirən şəkillər öz əksini tapmışdır.

Stansiyanın həyətinin giriş hissəsində dövlət rəmzlərindən olan üçrəngli bayrağımız 18 metr hündürlükdən dalğalandırılmış, dəmir yolunun müasirləşməsini, dövlət atributlarını—himnimizin, gerbimizin ifadəsini canlandıran stend tam olaraq yenidən qurulmuş, gözoxşayan vəziyyətə gətirilmişdir. Yenilənən stenddə ulu öndərin və cənab Prezidentimizin də fotoportreti öz əksini tapmışdır. Bundan başqa, stansiyanın həyətindəki Heydər Əliyevin böyük foto-portreti də yeniləşdirilmiş, ətrafı müasir üslubda hasara alınaraq həmişəyaşıl ot örtüyü salınmışdır. Dəmiryolçu şəhidlərinin və Böyük Vətən Müharibəsində həlak olanların əziz xatirəsini əbədiləşdirmək üçün yaradılmış abidə kompleksi yüksək səviyyədə təmir olunaraq yeni görkəmə salınmışdır. Stansiyanın ərazisində mövcud olan dəmir yolunun tarixini özündə əks etdirən qüllə də təmir olunmuş, fasad hissəsi yenidən rənglənərək baxımlı vəziyyətə gətirilmişdir. Həmçinin stansiyanın həyətində uzun illərdən bəri mövcud olub, lakin qeyri-işlək vəziyyətdə olan "bulaq" kompleksi estetik təmir olunmuş, su xətti yeniləşdirilmiş, fasiləsiz suyun olması təmin edilmişdir.

Biləcəri stansiyası dəmir yollarının üzərində olan piyadaların yol ötürücüsü, yol ötürücüsünün üzərində olan projektor dirəkləri rənglənmiş, gecə saatlarında işıqlandırmanı təmin etmək üçün yeni işıqlandırma qurğuları quraşdırılmışdır. Stansiyanın park yollarını işıqlandıran projektorların 8 ədədi əsaslı təmir olunmuşdur. Beləliklə, stansiyanın tam işıqlandırılması təmin olunur ki, bu da gecə vaxtlarında hərəkətin təhlükəsizliyinə xidmət edir.

Bütün sahələrdə qazanılan uğurlar, möhtəşəm iqtisadi nailiyyətlər onu deməyə əsas verir ki, bu gün Azərbaycanda böyük öndərin ideyaları yaşayır, onun siyasi varisi cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu gün qürur hissi ilə qeyd edirik ki, ölkəmizin son illər əldə etdiyi bütün uğurlarının təməlində Heydər Əliyev dühası dayanır. Ulu öndərin öz xalqı qarşısındakı gördüyü möhtəşəm işlər heç vaxt unudulmur, əbədiyaşar Heydər Əliyevin nurlu xatirəsi xalqımızın qəlbində daim yaşayır, böyük hörmət və məhəbbət hissi ilə yad edilir.

**Elçin MƏMMƏDOV,**
**"ADY" QSC-nin Biləcəri stansiyasının rəisi.**